# Ədliyyə islahatları uğurla həyata keçirilir

***Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dinamik iqtisadi inkişaf və düzgün xarici siyasət nəticəsində ölkəmiz bu gün regionun lider dövlətinə çevrilmişdir. Azərbaycanın ədliyyə sistemi də bu inkişafın ön sırasındadır. Ədliyyə fəaliyyətinin dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkili, müasir texnologiyaların və idarəçilik metodlarının tətbiqi, yeni nəsil hüquqşünasların formalaşdırılması üzrə genişmiqyaslı tədbirlər görülmüşdür.***

Dövlətimizin başçısı məhkəmələrə olan ictimai inamın möhkəmləndirilməsi baxımından, ilk növbədə, hakim korpusunun sağlamlaşdırılmasına və yeniləşdirilməsinə, seçim prosesinin tamamilə şəffaf və ədalətli meyarlar əsasında həyata keçirilməsinə hər zaman mühüm vəzifələrdən biri kimi yanaşmışdır.

Ölkəmizdə 2004-cü ildən geniş vüsət almış islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaq olmuşdur. Bu istiqamətdə ən mühüm addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafında yeni mərhələ olmaqla bu sahədə islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə rəvac vermiş, o cümlədən, elektron məhkəmənin tətbiqi ilə bağlı təşkilati işlərin yekunlaşdırılmasını, onun funksionallığının artırılmasını, fiziki və hüquqi şəxslərin bu sistemdən istifadəsinin təşviqini şərtləndirmişdir.

Fərmanda "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması, mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturunun və maddi-texniki təchizatının yaxşılaşdırılması, birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi, həmçinin digər məsələlərlə bağlı tövsiyə və tapşırıqlar verilmiş, məhkəmə hakimlərinin ümumi sayının 200 nəfər artırılması tapşırılmışdır.

Sənəddə göstərilən tədbirlərin yerinə yetirilməsi ötən müddət ərzində təkcə hakim korpusunun deyil, həm də məhkəmə hakimiyyəti heyətinin bütün işçilərinin rifahına müsbət təsir göstərmişdir.

Həmin fərmandan irəli gələn məsələlərin qanunvericilik aktlarında öz əksini tapması istiqamətində atılan addımlardan biri də Azərbaycan Prezidentinin 9 iyul 2021-ci il tarixli fərmanı ilə Mülki Prosessual Məcəlləyə olunmuş dəyişikliklərdir. Dəyişikliklərə əsasən, mülki prosessual məcəlləyə 40-7-ci fəsil kimi yeni icraat növü, "Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsinə dair işlər üzrə icraat" əlavə edilmiş, 13-cü fəslin adı dəyişdirilərək "Müvəqqəti təminat tədbirləri" adlandırılmışdır. Bundan başqa, mülki işlərə baxılmasında yazılı icraata keçid məhkəmələrdə iş yükünün azaldılması və vətəndaş məmnunluğun yüksəldilməsi baxımından mühüm önəm daşımışdır.

Mübahisələrin məhkəmədənkənar səmərəli həllinə nail olmaq üçün tətbiq edilən mediasiya institutu ədliyyə sistemində edilən mühüm dəyişikliklərin təməlini qoymuşdur. Müasir dövrdə demokratik dövlət quruculuğunun inkişafı dünya hüquq məkanına inteqrasiyadan, mütərəqqi və çevik hüquqi mexanizmlərin yaradılması və tətbiqindən bilavasitə asılıdır. Avropa hüquq məkanında artıq xeyli müddətdir ki, tətbiq edilən mediasiya prosedurunun üzv ölkələrdə də geniş yayılması mühüm yeniliklərdən biri kimi məhz bu baxımdan aktuallıq kəsb edir. Müasir şəraitdə mübahisələrin səmərəli həlli məqsədilə üçüncü tərəfin müdaxiləsi zərurətə çevrilmişdir. Hazırda hüquqi, siyasi-diplomatik vasitə kimi mediasiya münaqişələrin uğurlu həlli yolu hesab edilir və qabaqcıl ölkələrdə mediasiya institutunun inkişafına geniş şərait yaradılır.

Mediasiya bəşəriyyətin təcrübəsi ilə ərsəyə gələn hüquq barışıq strategiyasının və hüquqi praktikanın növlərindən biridir. Mediasiya mübahisədə olan tərəflə arasında qarşılıqlı konsensusa əsaslanan və hər iki tərəfi qane edən dərk edilmiş qərara gəlmək yoludur. Mediasiya mübahisələrin həlli prosedurunda üçüncü tərəfin – mediatorun iştirakını nəzərdə tutur və vasitəçiliyin özünəməxsus bir formasıdır.

Mediasiya institutunun tətbiqi ilk dəfə pilot layihə çərçivəsində Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin inzibati binasında tətbiq edilmişdir. Layihə çərçivəsində vətəndaşlara könüllü qaydada, ödənişsiz mediatr təyin edilmiş və mübahisənin məhkəmədən öncə səmərəli həllinə nail olmağa çalışılmışdır. Lahiyə uğurla həyata keçirilmiş və ailə mübahisələri üzrə məhkəməyə müraciət edən şəxslər arasında barışıq sazişinin bağlanması ilə nəticələnmişdir.

Ötən illərdə olduğu kimi, bu il də məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə tədbirlər davam etdirilmiş, dövlət başçısı tərəfindən Sumqayıt Şəhər Məhkəmə Kompleksinin yeni müasir binasının açılışı həyata keçirilmişdir. Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən və altı məhkəməni – Sumqayıt apelyasiya, regional inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edən Sumqayıt Məhkəmə Kompleksində innovasiyalar və digər avadanlıqlarla təchiz olunmaqla yaradılan müasir şərait təxminən 1 milyon 460 min əhaliyə rahat və əlçatan, keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsinə yönəlmişdir.

Dövlət başçısının sosial ədalətə əsaslanan islahatlarına, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın inklüziv cəmiyyətin inkişafı üzrə təşəbbüslərinə uyğun olaraq hazırda Ədliyyə Nazirliyi tərəfindən innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür.

Nazirlik tərəfindən aparılan on minlərlə normativ sənədi ehtiva edən "Hüquqi aktların vahid elektron bazası" vasitəsilə hər kəs ödənişsiz olaraq, ani rejimdə qanunvericilik aktlarını əldə edə bilir. Böyük zəfər nəticəsində işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi, həmçinin vətəndaşlara və dövlət orqanlarına zəruri xidmətlərin göstərilməsi məqsədilə 1500-ə yaxın icra hakimiyyəti nümayəndəliyinin nazirliyin informasiya resurslarına qoşulması ilə bölgə əhalisi barədə məlumatların elektron formatda, çevik və dəqiq qeydə alınması mümkün olmuşdur.

Eyni zamanda, icra hakimiyyəti nümayəndəliklərinin "Elektron notariat" informasiya sisteminə qoşulması kənd təsərrüfatı təyinatlı torpaqların fermerlərin istifadəsinə verilməsini xeyli asanlaşdırmışdır. Ölkəmizin xaricdəki konsulluqlarının "e-notariat sistemi" vasitəsilə xidmətlər göstərməsi soydaşlarımızın rahatlığına yönəlmişdir.

Yeri gəlmişkən, burada mühüm bir məsələni də qeyd etmək istərdim. Belə ki, bələdiyyə fəaliyyətinin səmərəliliyinin artırılması, vətəndaşların bələdiyyələrə əlçatanlığının təmin olunması məqsədilə bələdiyyələrlə bağlı xüsusi portal hazırlanmışdır. Bununla yanaşı, vergi, sığorta, aliment və digər borclar üzrə məhkəmə qərarlarının çevik icrası məqsədilə ödənişlərin birbaşa bank hesablarına yönəldilməsi təşkil olunmaqla, bu sahədə işin səmərəsi xeyli artırılmışdır. "Elektron məhkəmə" informasiya sisteminin prokurorluq orqanlarına inteqrasiyası ilə ədalət mühakiməsinin daha səmərəli və çevik həyata keçirilməsinə imkan yaradılmışdır.

Fəaliyyətin pandemiya şəraitində təşkilinə baxmayaraq, Azərbaycan ədliyyəsinin inkişafı üzrə tədbirlər də davam etdirilmiş, hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyəti ilə bağlı dövlət başçısının göstəriş və tövsiyələrindən irəli gələn vəzifələr nazirliyin videoformatda keçirilən kollegiya iclaslarında, ölkənin bütün məhkəmələrini əhatə edən müşavirələrdə geniş müzakirə olunaraq ədliyyə və məhkəmə sahəsində idarəçiliyin müasirləşdirilməsi, şəffaflığın artırılması, korrupsiyanın qarşısının alınması, ictimai iştirakçılığın təşviqi, innovasiyaların tətbiqi ilə bağlı əməli tədbirlər həyata keçirilmiş, yüksək hazırlıqlı kadrlar rəhbər vəzifələrə irəli çəkilmiş, o cümlədən, nazirliyin və struktur qurumların, yüksək məhkəmələrin rəhbərliyi möhkəmləndirilmişdir.

Bu il sevindirici haldır ki, Ədliyyə işçilərinin peşə bayramı Qarabağın işğaldan azad olunmuş şəhər və rayonlarında böyük sevinc hissi ilə qeyd olunur. Ötən ilin sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqımızın zəfər salnaməsini yazdı.

Dövlət başçısının qəti iradəsi və müdrik xarici siyasəti, müzəffər ordumuzun qəhrəmanlığı və şücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində erməni işğalçıları həm hərbi, həm də siyasi meydanda ağır məğlubiyyətə uğradıldı, möhtəşəm qələbə qazanılaraq tarixi ədalət bərpa olundu, xalqın inamı özünə qaytarıldı.



Prezident İlham Əliyevin son 18 ildə ümumilli lider Heydər Əliyevin müdrik siyasi kursunu layiqincə davam etdirməsi torpaqlarımızın işğaldan azad edilməsinin zamanını yetişdirməklə vaxtilə İlham Əliyev tərəfindən deyilmiş "Heydər Əliyev siyasətinə sadiq qalacağam və bu siyasəti davam etdirəcəyəm" ifadəsi və eyni zamanda, ölkənin birinci xanımı Mehriban Əliyeva ilə birlikdə Şuşanın düşməndən azad edilməsi münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edərkən xalqa müraciətində söylədiyi "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" sözlərlə öz təsdiqini tapdı.

*İslam ƏLİYEV,*
*Yasamal Rayon Məhkəməsinin sədri*